

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 148 (23.790)

*17 avqust 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "CNN Türk" televiziya kanalına müsahibə verib. Müsahibədə tarixi Zəfərdən, Qarabağın və Şərqi Zəngəzurun bərpasından bəhs edilib. Qeyd olunub ki, Zəngəzur dəhlizinin açılması ilə Azərbaycanla Türkiyə yeni bir nəqliyyat layihəsi ilə birləşəcək. Prezident İlham Əliyev vurğulayıb ki, İkinci Qarabağ müharibəsindəki məğlubiyyət ermənilər üçün dərs olmalıdır.

* * *

Avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar. Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq tunelin təməlini qoyub, Kəlbəcər Kiçik Su Elektrik Yarımstansiyasında görülən işlərlə tanış olublar. Daha sonra 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyasının açılışını ediblər.

Səfər çərçivəsində dövlətimizin başçısı Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunelin və Laçın Beynəlxalq Hava Limanının təməlini qoyub. Daha sonra Prezident İlham Əliyev Kəlbəcər şəhərində dövlət bayrağını ucaldıb və burada çıxış edib.

Sonra Prezident İlham Əliyev Kəlbəcər şəhərindəki N saylı hərbi hissədə yaradılan şəraitlə tanış olub. Kəlbəcərə səfəri zamanı dövlətimizin başçısı "İstisu" sanatoriyasında da olub, Kəlbəcər-Laçın rayonunun Minkənd yolunun çəkilməsi işlərinə baxıb.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Avqustun 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ölkələr arasındakı qarşılıqlı əlaqələrdən bəhs edən Ali Məclisin Sədri Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin muxtar respublika ilə əməkdaşlıqdakı fəaliyyətini qeyd etmişdir. Ali Məclisin Sədri diqqətə çatdırmışdır ki, bu illər ərzində təhsil, iqtisadiyyat, kənd təsərrüfatı istiqamətində bir sıra uğurlar əldə olunmuş, qarşılıqlı layihələr həyata keçirilmişdir. "İcma Quruculuğu Təşəbbüsləri Proqramı" çərçivəsində "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" adlı layihənin həyata keçirildiyini xatırladan Ali Məclisin Sədri nümayəndə heyətinə layihənin həyata keçirilməsinə görə təşəkkür etmişdir.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlıq edən səfir Örl Litzenberqer Naxçıvan Muxtar Respublikasına səfərinin əhəmiyyətini vurğulamışdır. Ailəsi ilə birlikdə Naxçıvana səfər etdiyini qeyd edən diplomat Amerika Birləşmiş Ştatları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin inkişafı istiqamətində səylərini artıracağını bildirmişdir.

Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Nazirlər Kabinetinin 2021-ci il 3 avqust tarixli Qərarı ilə "İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının Naxçıvan Muxtar Respublikasının aidiyyəti orqanlarının sifarişi əsasında hazırlanması, saxlanılması, uçotu və təqdim edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 avqust tarixli 84 nömrəli Qərarında dəyişiklik edilmişdir. Həmçinin Nazirlər Kabinetinin 2021-ci il 5 avqust tarixli Qərarına əsasən "Naxçıvan Qarnizonu Hərbi Hospitalının əhaliyə göstərdiyi tibbi xidmətlərin tariflərinin və həmin xidmətlərdən daxil olan vəsaitdən istifadə Qaydası" təsdiq edilmişdir.

Bundan əlavə, Nazirlər Kabinetinin 2021-ci il 10 avqust tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nda, eləcə də "Naxçıvan Muxtar Respublikasında işsiz şəxslərin özünüməşğulluğunun təşkili Qaydası"nda dəyişiklik edilmişdir. Sonuncu Qaydada edilmiş dəyişikliyə əsasən özünüməşğulluğa cəlb olunmuş şəxs müqavilə müddətində fəaliyyəti ilə bağlı, o cümlədən ona verilmiş əmlaka dair məlumatları Dövlət Məşğulluq Agentliyinə təqdim etməlidir.

Eyni zamanda Nazirlər Kabinetinin 2021-ci il 11 avqust tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası ərazisində iqtisadi fəaliyyət sahələri üzrə 2022-ci il üçün əmək miqrasiyası kvotası" təsdiq olunmuşdur.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Sənaye məhsullarının istehsalı artıb



Naxçıvan Muxtar Respublikasında həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə tarazlı inkişafa, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü məhsul istehsalına nail olmaqdan ibarətdir. Buna görə də mövcud sənaye imkanlarından maksimum yararlanmaq, məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Son illərdə muxtar respublikada müasir sənaye müəssisələrinin yaradılması, yerli xammala əsaslanan yeni məhsulların istehsalı bu sahədə dinamik inkişafı təmin edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2021-ci ilin yanvar-iyun aylarında muxtar respublikada ümumi daxili məhsulun tərkibində ilk yeri 30,2 faizlik payla sənaye sahəsi tutub və maddi istehsalın payı 58 faiz təşkil edib. Bu dövrdə muxtar respublikada 572 milyon 248 min manat dəyərində sənaye məhsulu istehsal olunub ki, bu da bir il öncəki göstəricini 1 faiz üstələyib. Sənaye məhsulu istehsalının 94,8 faizi malların, 5,2 faizi isə xidmətlərin payına düşüb. İstehsal olunan sənaye məhsulunda özəl bölmənin payı 92,8 faiz təşkil edib ki, bu da ölkənin digər iqtisadi rayonları ilə müqayisədə ən yüksək göstəricidir.

Qeyd edək ki, bu gün muxtar respublika iqtisadiyyatının şaxələndirilməsində sənaye sektoru əhəmiyyətli rol oynayır. Sənayenin inkişafı məqsədilə cari ilin birinci yarısında bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 7 milyon 720 min manat kredit verilib.

**Xəbərlər şöbəsi**

## Kənd təsərrüfatının inkişafı diqqətdə saxlanılır

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi 2021-ci ilin iyul ayında da fəaliyyətini nazirliyin illik iş planının və Dövlət proqramlarının icrası istiqamətində həyata keçirmişdir. Nazirliyin əməkdaşları tərəfindən muxtar respublikada taxıl biçininin qısa müddətdə başa çatdırılması, biçin zamanı baş verə biləcək fəsadların tez bir vaxtda aradan qaldırılması barədə sahibkarlara və ailə təsərrüfatı üzvlərinə maarifləndirici məsləhətlər verilmişdir. Ötən ay meyvə və üzüm bağlarında, bostan-tərəvəz sahələrində xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərinin aparılması istiqamətində maarifləndirmə tədbirləri davam etdirilmiş, iqtisadi cəhətdən səmərəli olan tütün bitkisinin aqrotexniki qaydalara uyğun becərilməsi istiqamətində təsərrüfat sahibləri ilə görüşlər keçirilmişdir.



Ötən ay meyvə bağları və üzümlüklərdə zərərverici və xəstəliklərə qarşı mübarizə ilə bağlı 20, təkrar əkinlərin aparılmasında əlverişli üsullarla bağlı 17 nəfər nazirliyə müraciət etmiş, onlara lazımi tövsiyələr verilməklə əməli köməkliklər göstərilmişdir.

"Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən təqdim olunan 20 torpaq nümunələrini analiz edərək tərkibindəki qida maddələrinin miqdarı barədə nəticə aktını təqdim etmişlər. Birliyin bitki sortlarının seleksiyası, sınağı, mühafizəsi və toxumçuluq şöbəsi tərəfindən 56 payızlıq buğda sortu üzərində tədqiqat, seleksiya və seçmə işləri başa çatdırılmışdır.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri ziyanvericilərin aşkarlanması üçün muxtar respublikanın bir sıra ətraf ərazilərində olmuş, müşahidələr aparmış, mübarizə tədbirlərinin aparılması barədə icra nümayəndələrinin, ailə təsərrüfatı rəhbərlərinin və fermerlərin iştirakı ilə maarifləndirici tədbirlər keçirmişlər.

Heyvandarlıqda mal-qaranın inkişaf etdirilməsi, onlara zoobaytar qaydalara uyğun qulluq edilməsi və cins tərkibinin yaxşılaşdırılması, yaylaqlardan səmərəli istifadə edilməsi istiqamətində maarifləndirmə tədbirləri davam etdirilmiş, arı ailələrinin mərhələli şəkildə köçürülməsi və xəstəliklərinə qarşı profilaktik tədbirlərin aparılması məqsədilə arıçılarla görüşlər keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Kəngərli rayonunda “Şərq qapısı” qəzetinin yubiley tədbiri keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər Planına əsasən mətbu orqanın növbəti yubiley tədbiri avqustun 16-da Kəngərli rayonunda olub.*

Mədəniyyət Sarayında keçirilən tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Səriyyə Qurbanova açaraq “Şərq qapısı” qəzetinin mətbuat tariximizdəki rolundan, muxtar respublikanın, o cümlədən də Kəngərli rayonunun sosial-iqtisadi inkişafının, ictimai-siyasi həyatının tarixiləşdirilməsində qəzetin əhəmiyyətindən bəhs edib.

“Şərq qapısı” qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova rayonun adının bilavasitə bağlı olduğu, dövlətçilik və hərb tariximizdə müstəsna rolu olan Kəngərlilər sülaləsinin tariximizdə oynadığı roldan, göstərdikləri misilsiz xidmətlərdən danışıb, bu bölgədə dünyaya göz açan görkəmli şəxsiyyətlərin elmimizə, ictimai-siyasi fikrimizə, milli jurnalistikamıza bəxş etdiyi töhfələrdən bəhs edib, 100 yaşlı mətbu orqanın keçdiyi tarixi inkişaf yoluna nəzər salıb, müstəqillik illərində milli mətbuatımıza göstərilən diqqət və qayğıdan bəhs edib. Bildirilib ki, “Şərq qapısı” qəzeti müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynayıb. Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən qəzet XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşüb. Qəzet ümummilli lider Heydər Əliyevin muxtar respublikamızda fəaliyyət göstərdiyi dövrdə müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olub. 1990-1993-cü illərdə ulu öndərimiz qəzetin fəaliyyəti ilə yaxından maraqlanıb, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin edib.

Çıxışda muxtar respublikada mətbuatın maddi-texniki bazasının gücləndirilməsi, jurnalistika sahəsində peşəkar kadr potensialının formalaşdırılması, peşəkarlıq keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən çoxsaylı tədbirlərdən bəhs edilib. Vurğulanıb ki, qəzet daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunub, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilib. Bildirilib ki, 2021-ci il 1 iyun tarixli Sərəncama əsasən “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir. “Şərq qapısı” qəzetinin baş redaktoru Mehriban Sultanova göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib, bundan sonra da səylə çalışacaqlarını diqqətə çatdırıb.



Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında mətbuatın cəmiyyətin, ictimai-siyasi fikrin formalaşmasında oynadığı roldan bəhs edib, “Yeni həyat” qəzeti əməkdaşlarının fəaliyyəti, Kəngərli rayonunun sosial-iqtisadi inkişafı, tarixi abidələri ilə bağlı “Şərq qapısı”nda dərc olunan materiallar haqqında danışıb, yeni dövr muxtar respublika mətbuatının inkişafı barədə məlumat verib. Bildirilib ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoyub. Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilib. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılıb. 2018-ci ildə dövlət teleradiosuna, “Şərq qapısı”, şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınıb, sonrakı dövrdə də teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilib.

Qeyd edilib ki, bu gün “Şərq qapısı” qəzeti redaksiyasında yüksək səviyyəli, müasir tələblərə cavab verə biləcək qəzetin nəşri üçün müasir iş şəraiti yaradılıb. 2012-ci ildən etibarən *www.serqqapisi.az* saytı vasitəsilə qəzet dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlayıb, qəzetin elektron arxiv bazası yaradılıb. Sayt 2019-cu ildə yenilənib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva, “Şərq qapısı” qəzetinin İqtisadiyyat və təhlil şöbəsinin müdiri Səbuhi Həsənov, “Yeni həyat” qəzetinin redaktoru Babək İsmayılov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Etimad Məmmədov, “Yeni həyat” qəzetinin məsul katibi Anar Qasımov çıxış edərək “Şərq qapısı” qəzetinin Kəngərli rayonunun ictimai-siyasi, mədəni, sosial həyatını geniş şəkildə işıqlandırmasından, milli mətbuatımızın inkişafında, jurnalist kadrların hazırlanmasındakı rolundan ətraflı söhbət açıblar. Tədbir ərzində qəzetin tarixi inkişaf yolu və iş prinsipini, 100 illik yubileyi ilə bağlı keçirilən tədbirləri əks etdirən, son illərdə Kəngərli rayonunun müxtəlif sahələrdə qazandığı uğurlardan bəhs edən videoslayd nümayiş olunub.

Sonda “Şərq qapısı” qəzeti ilə yaxından əməkdaşlıq edən “Yeni həyat” qəzetinin redaktoru Babək İsmayılova fəxri fərman və hədiyyə, digər qələm sahiblərinə hədiyyələr təqdim olunub.

✍ **Nail ƏSGƏROV**

## Elmi nəticələrin istehsalata tətbiqi dövrün tələbidir

***Müasir dövrdə günü-gündən yeniləşən Azərbaycanımızın Naxçıvan Muxtar Respublikası özünün hazırkı sürətli inkişaf dövründə ötən hər ili sosial-iqtisadi həyatda əldə olunan mühüm nailiyyətlərlə başa vurur. Bu illərdə uğurla həyata keçirilən regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları əsasında muxtar respublikanın sosial-iqtisadi strategiyasına uyğun olaraq bir sıra mühüm qərarlar qəbul edilmiş, müsbət nəticələr əldə olunmuşdur. Qeyd edək ki, ölkədə əhalinin etibarlı ərzaq təminatı sosial dayanıqlığın, iqtisadi sabitliyin və hərbi gücün başlıca meyarıdır. Bu baxımdan muxtar respublikada əhalinin ərzaqla təmin olunmasına xüsusi diqqət yetirilir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq etdiyi və icrası uğurla başa çatan “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda bölgədə 46,2 min ton meyvə, 20 min ton üzüm istehsal olunması planlaşdırılmış və həyata keçirilmişdir. Hazırda “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda bu məqsədə nail olunması üçün intensiv texnologiya ilə becərilən yeni meyvə-tərəvəz və üzüm sahələrinin yaradılması, unudulmuş aborigen sortların bərpası, yüksəkkeyfiyyətli və məhsuldar yerli sortlardan ibarət yeni bağların salınması, intensiv texnologiyaya əsaslanan perspektivli sortların introduksiya edilməsi, əkin sahələrinin genişləndirilməsi və artımına nail olunması, yabanı meyvə-tərəvəz bitkilərindən istifadə imkanlarının müəyyənləşdirilməsi, əkin sahələrinin gübrələrlə, xəstəliklərə və ziyanvericilərə qarşı mübarizəsi üçün kimyəvi preparatlarla dolğun təmin edilməsi, mövsümlərarası dövrlərdə əhalinin fasiləsiz meyvə-tərəvəz və üzüm məhsulları ilə təmin edilməsi üçün anbar şəbəkələrinin və saxlama soyuducu kameraların yaradılması, daxili bazarın qorunması, meyvə-tərəvəz məhsullarının tədricən idxalının azaldılması və ixracının təşkili, yeni müasir istehsal müəssisələrinin yaradılması kimi mühüm tədbirlərin həyata keçirilməsi planlaşdırılmış və icra edilməkdədir.





Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə müvafiq Dövlət proqramları bölgədə aqrar siyasətin hazırkı dövrdə əhalinin artan tələbatına uyğun olaraq meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişafı üçün qəbul edilmiş mühüm dövlət sənədi olmaqla, qarşıya mühüm vəzifələr qoyur.

Uzun illərdir ki, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunda muxtar respublikada meyvəçiliyin, tərəvəzçiliyin və üzümçülüyün öyrənilməsi, tətbiqyönümlü sortların müəyyənləşdirilməsi, istehsalata yönəldilməsi istiqamətində elmi-tədqiqat işləri aparılmaqdadır. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, muxtar respublikada 200-dən çox meyvə sortu, 150-dən çox sort və formalardan ibarət üzümün zəngin genofondu mövcuddur. Mövcud meyvə və üzüm genofondundan səmərəli istifadə olunması muxtar respublika əhalisinin yerli məhsullar hesabına tumlu, çəyirdəkli meyvə sortları və üzüm məhsulları ilə dolğun təmin edilməsinə, hətta ixracına şərait yaradır.

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Muxtar respublikada yaradılan şərait elmin inkişafına və istehsalatda tətbiqinə geniş imkanlar açır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi elmi tədqiqatların səmərəliliyinə diqqəti artırmalı, gənc tədqiqatçıların hazırlanması və elmin istehsalatda tətbiqi ilə bağlı konkret təkliflər verməlidir”.***

Bu mühüm vəzifələrin layiqincə həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin inkişaf strategiyasına uyğun olaraq aşağıdakı praktik tədbirlərin daha geniş miqyasda həyata keçirilməsi nəzərdə tutulur:

*- muxtar respublikada meyvə genofondunun qorunması, öyrənilməsi, meyvəçiliyin genişləndirilməsinin elmi-praktik əsaslarının hazırlanması;*

*- meyvəçilik üzrə fermer təsərrüfatlarının müasir elmi əsaslarla təşkili, meyvəçi-aqronom kadrların bu işlərə cəlb edilməsi, aqronomların peşə hazırlıqlarının mütəmadi olaraq yenilənməsi üçün aqronomluq ixtisasartırma kurslarına cəlb olunmasının təşkili;*

*- meyvəçilik üzrə ixtisaslaşdırılmış tinglik təsərrüfatlarının yaradılması, tətbiqyönümlü meyvə sortlarının əkin dövriyyəsinə daxil edilməsi;*

*- dağlıq, dağətəyi və Arazboyu düzənlik ərazilərdə landşafta uyğun iqtisadi əhəmiyyətli və tətbiqyönümlü tumlu və çəyirdəkli meyvə sortlarının müəyyənləşdirilməsi, mövcud bağların qaydaya salınması, əkinəyararsız boş torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi və yeni bağların salınması;*

*- meyvəçiliyin intensiv əsaslarla inkişafı üçün sənaye əhəmiyyətli yeni sortların introduksiyası;*

*- meyvəçilik üzrə ailə təsərrüfatı və fermer təsərrüfatlarının yaradılmasının genişləndirilməsi, inkişaf etdirilməsi, satış bazarlarına daha çox təzə yerli meyvə məhsullarının çıxarılmasında dövlət dəstəyinin artırılması, əhalinin yerli meyvə məhsulları ilə dolğun təminatının yaxşılaşdırılması;*

*- meyvəçilik üzrə innovativ texnologiyaya əsaslanan ilkin emal müəssisələrinin yaradılması, müxtəlif çeşidli konservləşdirilmiş məhsulların istehsalının artırılması və ixrac məhsullarının genişləndirilməsi;*

*- istehsal olunmuş ekoloji təmiz meyvə məhsullarının itkisiz toplanılması, qurudulmuş meyvə istehsalının təşkili və genişləndirilməsi;*

*- meyvə bağlarının suvarma şəbəkələrinin yaxşılaşdırılması və genişləndirilməsi, yerli rəqabət əsasında pərakəndə satışının təşkili və maliyyə-kredit problemlərinin həlli üçün dövlət dəstəyinin artırılması;*

*- meyvəçilik üzrə rəqabətədavamlı ayrı-ayrı çeşidli məhsulların hazırlanması, reklamların təşkili, yerli bazara satışa çıxarılması və xaricə ixrac edilməsi üçün müasir texnologiya əsasında sənaye müəssisələrinin yaradılması.*

Son vaxtlar muxtar respublikada üzümçülüyün genişləndirilməsinə dövlət qayğısı artmaqdadır. Bölgədə yerli üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, torpaq və iqlim şəraitinə uyğun yeni plantasiyaların salınmasında yararsız torpaqların əkin dövriyyəsinə daxil edilməsi, üzümçülük və şərabçılığın inkişafı ön plana çəkilib.

Buna uyğun olaraq Bioresurslar İnstitutunun Meyvə-tərəvəz və üzümçülük laboratoriyasında elmi nailiyyətlərin istehsalata tətbiq olunması istiqamətində məqsədyönlü elmi-tədqiqat işləri yerinə yetirilmişdir. Nəticədə, 150-dən çox yerli üzüm sortlarının biomorfoloji xüsusiyyətləri öyrənilmiş, rentabelliyi yüksək olan tətbiqyönümlü sortlar müəyyənləşdirilmiş, iqtisadi səmərəliliyi qiymətləndirilmişdir. Seleksiya yolu ilə çoxlu sayda yeni sort və formalar əldə olunmuşdur. Çoxillik məqsədyönlü elmi-tədqiqat işləri nəticəsində yaradılmış tətbiqyönümlü 8 yeni üzüm sortu 2020-2021-ci illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Azərbaycan Respublikası ərazisində kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadəsinə icazə verilmiş və mühafizə olunan seleksiya nailiyyətlərinin dövlət reyestrinə daxil edilməklə patent və müəlliflik şəhadətnaməsi verilmişdir. Artıq iqtisadi səmərəliliyi və yüksək rentabelliyi ilə qiymətləndirilən “Naxçıvan muskatı”, “Əlincə”, “Oğuz üzümü”, “Qəhvəyi kişmişi”, “Milax üzümü”, “Bənəniyar üzümü”, “Nərgizi”, “Bayançıra süfrə” adlı yeni üzüm sortlarının Azərbaycan Respublikasının əsas üzümçülük bölgələrində rəsmi olaraq əkilib-becərilməsinə və yayılmasına başlanılmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına növbəti səfər zamanı demişdir: ***“Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır”.***

*Bu baxımdan digər sahələrdə olduğu kimi, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Meyvə-tərəvəz və üzümçülük laboratoriyasının əməkdaşları da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun çıxışından irəli gələn tələbləri layiqincə yerinə yetirəcək, elmi nəticələrin istehsalata daha da geniş tətbiq olunmasına çalışacaqlar.*

**Varis QULİYEV**
***AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Meyvə-tərəvəz və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmlər doktoru***

*Turizm müasir dövrün ən çox diqqəti cəlb edən sosial-iqtisadi sahələrindən biridir. Çoxşaxəli inkişaf istiqamətlərinə malik olan bu sektor həm müxtəlif xalqlar arasında qarşılıqlı münasibətlərin formalaşmasına, həm insanların daimi və mövsümi məşğulluqlarının təmin edilməsinə, həm də iqtisadi tərəqqiyə təkan verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***“Turizm sahəsi həm regionların inkişafı, həm də ki ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir”.***

Dövlət proqramı icra olunur

## Turizmin inkişafı diqqət mərkəzindədir

Azərbaycan Respublikasının zəngin tarixi ənənələri, maddi mədəniyyət nümunələrinin bolluğu, müxtəlif iqlim tiplərinin və təbii şəraitin mövcudluğu bu qədim diyarda geniş turizm potensialının formalaşmasına gətirib çıxarmışdır. Bu potensialdan istifadənin təmin edilməsi məqsədilə son illərdə turizm infrastrukturunun inkişafı, ölkəmizin beynəlxalq aləmdə tanıdılmasına xidmət edən dövlətlərarası mədəni və idman tədbirlərinin təşkili məqsədilə hazırlanan layihələrin icrası yüksək peşəkarlıqla həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasında da turizm imkanlarından istifadə məqsədilə həyata keçirilən tədbirlərin sayı ildən-ilə artmaqda davam edir. Yerləşdiyi coğrafi mövqe, hər biri ayrı bir tarix olan mədəni abidələrin, unikal dada malik mineral suların, milli mətbəx nümunələrinin, insan sağlamlığına faydası saymaqla bitməyən müalicə ocaqlarının mövcudluğu yerli və xarici turistlərin marağını Naxçıvana cəlb edən faktorlar kimi önə çıxmaqdadır. Bu imkanlardan yararlanmaq üçün irimiqyaslı infrastruktur layihələrinin reallaşdırılması Naxçıvanda turizmin gələcək inkişafı üçün də əlverişli şərait formalaşdırır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Müasir dünyada turizm sektoru iqtisadi cəhətdən ən gəlirli və perspektivli sahələrdən biridir. Zəngin mədəni-tarixi irsə və əlverişli şəraitə malik olan Naxçıvan Muxtar Respublikasında turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Hazırda muxtar respublikada iqtisadi-sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür”.***

Muxtar respublikanın turizm potensialından istifadəyə yönələn tədbirlərin davamlılığının təmin edilməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın icrası xüsusi əhəmiyyət kəsb edir. Proqramda nəzərdə tutulan tapşırıqların icrası ikinci rübdə diqqət mərkəzində olmuş, tarixi-mədəni irsi özündə əks etdirən mədəniyyət abidələrinin qorunması istiqamətində Ordubad şəhərində qədim Cümə məscidinin bərpası, Cəhri qəsəbəsində Heydərxanlı məscidinin yenidən inşası davam etdirilmişdir. Bu dövrdə Ordubad şəhəri üzrə piyada marşrutu hazırlanmış, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən hazırlanan muxtar respublika ərazisində turizmin inkişafı və perspektivləri, eləcə də turizm marşrutları üzrə bir neçə abidənin daxil edildiyi 3 monoqrafiya nəşrə təqdim edilmişdir.

Yerli və xarici qonaqları Naxçıvana cəlb edən faktorlardan biri də bu qədim diyarın zəngin kulinariya mədəniyyətinə malik olmasıdır. Muxtar respublikanın təbii bitki örtüyü heyvandarlıq, torpaqların münbitliyinin artırılmasına göstərilən diqqət isə meyvə-tərəvəz məhsullarının keyfiyyətli, dadlı və faydalı olmasına səbəb olur. Deyilənlərə tərkibində onlarla mineralı birləşdirən əvəzolunmaz Naxçıvan duzunu da əlavə etdikdə çoxəsrlik təcrübəyə əsaslanan yerli mətbəx nümunələrinin fərqləndirici xüsusiyyətləri meydana çıxır. Bu da Naxçıvanda kulinariya turizminin inkişafı üçün böyük imkanların formalaşması deməkdir. Adıçəkilən sahəyə göstərilən diqqət və dövlət qayğısının təzahürlərindən biri ötən müddətdə “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzinin fəaliyyəti üçün hərtərəfli şəraitin yaradılmasıdır. Mərkəz ikinci rübdə müxtəlif mətbəx nümunələrinin toplanması istiqamətində fəaliyyətini davam etdirmiş, milli yeməklərimizin təbliğ edildiyi 4 televiziya verilişində həmin yeməklərin hazırlanma qaydalarının əyani şəkildə nümayiş etdirilməsi təmin olunmuşdur. Eyni zamanda “Naxçıvan mətbəxi” kitabına yeni yemək nümunələri əlavə edilməklə 3 dildə nəşrə hazırlanması istiqamətində iş aparılmışdır.

Qeyd olunanlarla yanaşı, aprelin 9-da Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisas üzrə təhsil alan tələbələrinin mərkəz və “Milli Yeməklər” İctimai İaşə Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə tanışlığı təmin edilmişdir. Həmçinin “Naxçıvan mətbəxi” Kulinariya Mərkəzinin sosial şəbəkə hesabında “Milli mətbəximiz” adlı onlayn müsabiqənin keçirilməsində məqsəd milli yeməklərimizin tanıdılması və təbliği olmuşdur.





Muxtar respublikada perspektiv vəd edən turizm növləri içərisində kənd turizmini də xüsusilə qeyd etmək lazımdır. Naxçıvanın həm səfalı təbiəti, həm də qonaqpərvərlik ənənələri bunu deməyə imkan verir. Dövlət proqramının icrası müddətində yaradılan Ağbulaq İstirahət Mərkəzi və burada cari ilin fevral ayında istifadəyə verilən xizək mərkəzi bölgədə həm yay, həm də qış turizminin gerçəkləşdirilməsi üçün şərait yaratmışdır. İkinci rübdə ərazidə yaşıllıq sahələrinin genişləndirilməsi məqsədilə 1 hektar sahədə tinglə, 22,5 hektar sahədə toxumla əkin aparılmışdır. Ailə təsərrüfatlarının bu istiqamətdə fəaliyyət göstərməyə təşviq edilməsi məqsədilə tədbirlər davam etdirilmiş, onlara mayın 6-da Ağbulaq kəndində təşkil olunan görüşdə turizm sahəsi üzrə dövlət maliyyə dəstəyi barədə məlumat verilmiş və “kiçikhəcmli kənd turizmi” layihəsinin təqdimatı keçirilmişdir. Təşviqat işinin davamı olaraq bölgədə iyunun 9-da Ağbulaq kəndi ilə yanaşı, Gömür kəndinin sakinləri ilə də görüşün keçirilməsi kənd turizminin əhatə etdiyi coğrafi ərazinin genişləndirilməsi istiqamətində işlərin davam etdirilməsindən xəbər verir.

Turizmin fərqləndirici xüsusiyyətlərindən biri də bu sahədə mövcud olan standartların intensiv surətdə yenilənməsi, vaxtaşırı meydana çıxan qlobal trendlərin sayının artmasıdır. Bu dəyişiklikləri mütəmadi müşahidə etmə və müasir dövrün çağırışlarına çevik reaksiya vermə bacarığı üzərində qurulmuş təhsil imkanları turizm sektorunda kadr tələbatını ödəməyin başlıca şərtlərindəndir. İkinci rübdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən Turizm agenti peşə kursunun yeni tədris planı təsdiq olunmuşdur. Həmin tədris planına uyğun olaraq kursun nümunəvi dərs cədvəlləri, elektron dərs vəsaiti və tədris proqramları işlənərək peşə məktəblərinə təqdim edilmişdir.

Adıçəkilən sektorda çalışanların bilik və bacarıqlarının təkmilləşdirilməsinə yönələn tədbirlər isə turistlərə göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi deməkdir. İyunun 22-də turizm sektorunun nümayəndələri üçün “Turizm ictimai iaşə obyektlərində ofisiant işinin təşkili” mövzusunda maarifləndirici seminar təşkil olunmuşdur. Həmin ayın 29-da Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi ilə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin birgə fəaliyyətinə əsaslanan “Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı 2020-2023-cü illər üzrə birgə Tədbirlər Planı”nın icrası məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində “Naxçıvan Muxtar Respublikasında mövcud olan turizm marşrutları üzrə bələdçilərin texniki peşə biliklərinin təkmilləşdirilməsi” təliminin açılış tədbiri keçirilmişdir. İkinci rübdə Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə “Azərbaycan hamamları” mövzusunda keçirilən vebinarda Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşının iştirakı təmin olunmuşdur.

Turizm və nəqliyyat sektoru arasındakı qarşılıqlı əlaqənin mahiyyəti bu sahələrin bir-birinin inkişafına təkan verməsindədir. Belə ki, turizm bölgəsinə gələn turistlərin sayının çox olması onlara xidmət edən nəqliyyat vasitələrinin də sayının və çeşidliliyinin, eləcə də bu sahənin iqtisadi çəkisinin artmasına imkan yaradır. Öz növbəsində, ucuz və rahat səyahət vəd edən nəqliyyat imkanlarının mövcudluğu isə turizm bölgəsinin cəlbediciliyini artıran faktorlardandır. Naxçıvanda Dövlət proqramının icrası müddətində yaradılan elektron taksi xidmətinin fəaliyyəti cari ilin ikinci rübündə də sifarişçilərin yaxın məsafədən qısa zamanda mənzil başına çatdırılması prinsipi üzərində qurulmuşdur. Naxçıvan Şəhər Nəqliyyat İdarəsində taksi fəaliyyəti ilə məşğul olan sürücülərlə “Turizmin inkişafında taksi fəaliyyətinin rolu” mövzusunda görüş keçirilmiş, tədbirin sonunda onlara muxtar respublikanın turizm potensialını və müxtəlif istiqamətli turist marşrutlarını əks etdirən bukletlər paylanmışdır. İkinci rübdə Ağbulaq İstirahət və Duzdağ Fizioterapiya mərkəzləri istiqamətində avtobus marşrutları fəaliyyətini davam etdirmişdir. Həmçinin may ayından “Əshabi-Kəhf” Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi və iyun ayından Uzunoba çimərliyi istiqamətində avtobus marşrutlarının mövsümi fəaliyyətə başlaması təmin edilmişdir.

*Proqramın icrasına uyğun olaraq aprel-iyun aylarında ağac, daş-duz və gips üzərində oyma, xalçaçılıq, papaqçılıq, dulusçuluq, misgərlik, eləcə də digər sənətkarlıq sahələri üzrə hazırlanmış 318 əl işinin Naxçıvan Biznes Mərkəzinin satış obyektlərinə yönəldilməsi təmin olunmuşdur.*

**“Şərq qapısı”**







## Hava hücumundan müdafiə bölmələrində taktiki-xüsusi təlimlər olub

Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən hava hücumundan müdafiə bölmələrində taktiki-xüsusi təlimlər keçirilir. Çətin dağlıq şəraitdə döyüş növbətçiliyi aparan zenitçilər bilik və bacarıqlarını praktik atışlarda nümayiş etdirirlər.



Müasir ümumqoşun döyüşünün çevik dəyişən şəraiti bütün heyətdən zenit-artilleriya bölmələrinin manevr qabiliyyətinin yüksək olmasını tələb edir. Bu məqsədlə bölmələrin qısa zamanda qurğulardan hava hədəfinə atəş açaraq məhv etməsi və çətin dağlıq şəraitdə yerdəyişməsi məşq etdirilir.

Təlimə cəlb olunan pilotsuz uçuş aparatlarının aşkar olunması, müşayiət və məhv edilməsi üzrə heyətlərin bacarıqları pilotsuz uçuş aparatlarının praktik fəaliyyəti ilə yoxlanılır.

Qurğu heyətlərinin yerüstü hədəflərə praktik atışları ilə təlimlər davam edir.

**Nəriman NƏCƏFOV**

## Növbəti tibbi aksiyada 259 sakin müayinələrdən keçirilib

***Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla davam etdirirlər.***

Ayda bir dəfə keçirilən aksiyanın növbəti ünvanı Şərur Rayon Mərkəzi Xəstəxanası olub. Tibbi aksiyada 26 ixtisaslı həkim və orta tibb işçisi iştirak edib. Sakinlər müxtəlifixtisaslı həkimlər tərəfindən müayinə olunub, analizlər götürülüb.

Qaraciyər, öd kisəsi, böyrək, mədəaltı vəzi və digər daxili orqanların müayinəsi üçün ultrasəs müayinələri aparılıb. Hər hansı bir xəstəliyi aşkarlanan sakinə müalicələr təyin edilib. Şəkərli diabet xəstələri müayinələrdən sonra Naxçıvan Muxtar Respublika Xəstəxanasına dəvət edilib. Müayinə zamanı səhhətində problemlər aşkarlanan 8 sakin üzərində varikosel, yırtıq və digər cərrahi əməliyyatlar aparılıb.

Gün ərzində davam edən tibbi aksiyada 259 sakin mindən çox müayinədən keçirilib.



Yengicə kənd sakini Eldar Cəfərov təmənnasız cərrahi əməliyyat olunduğu üçün minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib.

Belə aksiyaların digər rayonlarda da davam etdirilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada əcnəbi tələbələr də dövlət qayğısı ilə əhatə olunub



*Azərbaycana və onun Naxçıvan Muxtar Respublikasına əcnəbilərin marağının və müxtəlif məqsədlərlə səfər etmə niyyətinin hər ötən il daha da artması onu deməyə əsas verir ki, qədim və zəngin tarixi özündə yaşadan muxtar respublikanın dayanıqlı və tarazlı inkişafı ölkəmizin hüdudlarından kənarda da müsbət dəyərləndirilir.*

Bu gün muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, təhsilin inkişafı, habelə təhlükəsizliyin və ictimai-siyasi sabitliyin təmin edilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində reallaşdırılan məqsədyönlü tədbirlər, nəticə etibarilə, əcnəbi tələbələrin diyarımıza olan marağının və burada təhsil almaq niyyətinin daha da artmasına səbəb olur. Xüsusilə qeyd etmək lazımdır ki, Naxçıvan bu gün əcnəbilərin təhsil almaq üçün ən çox üz tutduğu şəhərlər sırasındadır.

Naxçıvan Muxtar Respublikasının müxtəlif ali təhsil ocaqlarında təhsil alan əcnəbi tələbələr muxtar respublika rəhbərinin davamlı qayğısı ilə əhatə olunublar. Belə ki, diyarımızda təhsil alan bütün xarici tələbələrə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə bir neçə dəfə ərzaq, Ramazan bayramında isə iftar payı verilib. Bu istiqamətdə reallaşdırılan tədbirlərin məntiqi davamı kimi əcnəbi tələbələrə maddi yardım da ayrılıb.

Bu gün muxtar respublikanın digər ali təhsil müəssisələrində olduğu kimi, “Naxçıvan” Universitetində də peşəkar kadrların hazırlığı üçün yaradılan hərtərəfli və müasir şərait, elektron idarəetmə və keyfiyyətli tədris sistemi, o cümlədən informasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiq olunması sayəsində bu təhsil ocağını seçən əcnəbilərin sayı heç də az deyil. 2020-2021-ci tədris ili üzrə “Naxçıvan” Universitetində təhsil alan 90-dan artıq əcnəbi tələbəyə müraciətləri əsasında Dövlət Miqrasiya Xidməti tərəfindən müvəqqəti yaşamaq üçün icazə vəsiqələri verilib. Təhsil alan əcnəbilər sırasında İran, Nigeriya və Türkiyə Respublikasının vətəndaşları xüsusi üstünlük təşkil edir.

Peşə fəaliyyətimlə əlaqədar olaraq müxtəlif məqsədlərlə səfər edən əcnəbilərin qədim və ulu diyarımızla bağlı təəssüratlarını öyrənmək mənim üçün hər zaman xüsusi maraq kəsb edib və qürurlandırıb. Bu baxımdan “Naxçıvan” Universitetində təhsil alan Türkiyə Respublikasının vətəndaşı Bərfin Dilan Aslan ilə görüşərək onun ali təhsil ocağı, eləcə də muxtar respublikamız haqqında təəssüratını öyrənməyi qərara gəldim.

***– Muxtar respublikamızda təhsil alan çoxsaylı əcnəbi tələbələrdən biri də sizsiniz. İstərdim, əvvəlcə bu qədim diyarı, eyni zamanda “Naxçıvan” Universitetini seçməyinizə səbəb olan amillər barədə oxucularımıza məlumat verəsiniz.***

– Bildiyiniz kimi, bu gün dostluq və qardaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri bütün dünyaya örnəkdir. Diqqətinizə çatdırım ki, bu gün xalqlarımızın eyni soykökə, dilə, dinə və ortaq mədəniyyətə malik olması Türkiyə Respublikasından olan tələbələrin muxtar respublikanın müxtəlif ali təhsil müəssisələrini seçməsi üçün çox geniş imkanlar yaradıb.

Yaxın qohumum hazırda “Naxçıvan” Universitetində təhsil alır. Onun Türkiyədə olarkən muxtar respublika və burada təhsilin keyfiyyəti haqqında yüksək təəssüratları Naxçıvan haqqında məndə də böyük maraq oyatmışdı. İnternet üzərindən Naxçıvan haqqında araşdırma da aparıb təhsilimi Azərbaycanın bu qədim diyarında davam etdirməyi qərara aldım. Cari ilin fevral ayından etibarən burada hazırlıq kursu üzrə təhsil alıram.

Atamla birgə muxtar respublikaya ilk səfərimiz zamanı gələcəkdə qeyri-qanuni miqrasiya problemləri ilə üzləşməmək üçün Sədərək sərhəd-keçid məntəqəsində miqrasiya bölməsinə yaxınlaşaraq köməklik istədik. Burada bizə miqrasiya qanunvericiliyini əhatə edən mühüm məlumatlar şifahi olaraq verildi, bu sahədə yarana biləcək istənilən çətinlik qarşısında elektron xidmətlərdən də müraciətetmə qaydaları ətraflı izah olundu.

Naxçıvanda olmaq təhlükədən uzaq, əmin-amanlıq içində dinc, rahat həyat yaşamaq deməkdir. Şahidi oldum ki, burada əcnəbilərin təhsil alması ilə bərabər, rahat yaşayışı və əmək fəaliyyəti ilə məşğul ola bilmələri üçün də çox geniş imkanlar mövcuddur. Etiraf etmək lazımdır ki, buranın sakit həyat tərzi, ən əsası təmizliyi bir sıra Avropa şəhərlərinə nümunə gücündədir. Buranı seçməyimin bir səbəbi də Azərbaycanın tarixini və mədəniyyətini daha yaxından öyrənmək istəyimin olmasıdır.

“Naxçıvan” Universitetində təhsilin keyfiyyəti, müəllim və tələbə kollektivinin səmimi münasibəti, həmçinin universitetdə yaradılan hərtərəfli şərait çox yüksək səviyyədədir. Universitetin maddi-texniki bazasının dünyanın ən qabaqcıl universitetlərinin standartlarına uyğunluğu burada daha mükəmməl təhsil almağımıza şərait yaradır.

***– Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən muxtar respublikaya təhsil almaq məqsədilə gələn əcnəbilər təhsil almaqla yanaşı, həm də ölkədə müvəqqəti yaşama hüququna malik olurlar. Təbii ki, onların müraciətləri əsasında Dövlət Miqrasiya Xidməti tərəfindən müvafiq icazələr verilir...***

– Sevindirici haldır ki, bu gün muxtar respublikada miqrasiya sahəsində görülən məqsədyönlü tədbirlər həyata keçirilir. Bu da, nəticədə, əcnəbilərin daha rahat, sərbəst və təhlükəsiz hərəkət etmələri baxımından mühüm əhəmiyyətə malikdir.

Təxminən, bir il əvvəl Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə müraciətim zamanı burada təhsil almaqla bərabər, həm də müvəqqəti yaşama hüququna malik olduğum izah edildi və mən müvəqqəti yaşama üçün icazə vəsiqəsi ilə təmin edildim.

Bir məqamı da xüsusi vurğulamaq istəyirəm. Müvəqqəti yaşamaq üçün icazə vəsiqələrinin verilməsinə və müddətinin uzadılmasına görə dövlət rüsumlarında digər vətəndaşlarla müqayisədə tələbələrə xüsusi güzəştlərin tətbiq edilməsi, həqiqətən də, təqdirəlayiqdir. Hesab edirəm ki, bu, əcnəbi tələbələrə göstərilən humanist mahiyyətin növbəti nümunələrindən biridir.

Bu gün miqrasiya sahəsində hər hansı çətinliyimiz yarandıqda yenə də rahatlıqla Dövlət Miqrasiya Xidmətinə müraciət edir, istəklərimizi aydın şəkildə ifadə edə bilirik.

***– Bu gün əcnəbilərin xidmətə daha rahat və sadə formada müraciət edə bilmələri üçün Dövlət Miqrasiya Xidməti tərəfindən elektron xidmətlərin həm sayı, həm də keyfiyyəti artırılıb. Maraqlıdır. Bəs siz elektron xidmətlərdən istifadə zamanı daha çox hansı sahələrə üstünlük verirsiniz?***

– İlk olaraq sərhəd buraxılış məntəqəsində miqrasiya bölməsinə müraciətimiz zamanı elektron məlumat köşkü vasitəsilə miqrasiya sahəsini əhatə edən bir sıra məlumatlarla elektron qaydada tanış olma fürsəti əldə etdim.

Bu gün biz gənclər hər də məlumatları daha çox sosial şəbəkə platformalarından əldə edirik. Bu baxımdan Dövlət Miqrasiya Xidmətinin sosial şəbəkə hesablarının fəaliyyətini xüsusi vurğulamalıyam. Bir sıra hallar da olur ki, xidmətə özünü gəlməyərək müxtəlif müraciətlərimi sosial şəbəkələr üzərindən ünvanlayıram və operativ qaydada cavablandırılır. Əlavə olaraq bu sahədə baş verən ən son yenilikləri, mühüm məlumatları da xidmətin sosial şəbəkələrindən əldə edirik.

***– Burada olduğumuz müddətdə muxtar respublikanın tarixi və mədəniyyəti ilə yaxından tanış ola bilmisinizmi?***

– Dünyanın müxtəlif ölkələrini gəzməyi, onların tarixini və mədəniyyətini öyrənməyi, bu sahədə yeni məlumatlar əldə etməyi çox sevən biriyəm. Tam səmimi deyə bilərəm ki, tarixi abidələrin bu qədər qorunduğu, onlara ikinci həyatın verildiyi, həmçinin insanların rahatlığı və məmnuniyyəti hesabına bütün zəruri imkanların yaradıldığı çox az şəhər tapmaq mümkündür.

Diqqətimi çəkən xüsusi bir məqam muzeylərin, tarixi məkanların hər kəsin istifadəsində və pulsuz olmasıdır. Bu gün müxtəlif şəhərlərdə hər hansı tarixi bir məkanı ziyarət etmək arzusundasansa, mütləq ödəniş etməli olursan. Lakin burada muzeylərin və tarixi abidələrin girişi pulsuzdur. Bu da təqdirəlayiq və örnək alınası bir addımdır.

Burada insanlar rahat şəkildə şəxsi avtomobilini və ya mağazasını açıq vəziyyətdə qoyub harasa gedirlər. İlk vaxtlar gördüklərim mənə çox qəribə gəlirdi, sonra bildim ki, bu, muxtar respublika insanlarının gündəlik həyat tərzidir. Sakit və təmiz küçələr, müalicə mərkəzləri, tarixi məkanlar, müxtəlif hotel və restoranlar… İnsanları çox səmimi, mehriban və qonaqpərvərdir. Bu yaxınlarda qrup yoldaşımın dəvəti ilə Ordubad rayonuna səfər etdim, rastlaşdığım mənzərə isə məni çox təəccübləndirdi. Şahidi oldum ki, muxtar respublikanın mərkəzində olduğu kimi, rayonlarında, hətta ən ucqar kəndlərində belə, nəqliyyat kommunikasiya, elektrik enerjisi, rabitə, qaz və su təminatı kimi sosial problemlər çoxdan öz həllini tapıb.

Bir sözlə, Naxçıvan Muxtar Respublikasında xarici ölkə vətəndaşları da daxil olmaqla insanların rahat, təhlükəsiz və məmnun yaşaması üçün bütün zəruri imkanlar mövcuddur. Burada dinindən, dilindən, irqindən asılı olmayaraq hər kəsə diqqət və qayğı göstərilir. Əcnəbilər üçün yaradılan bütün bu imkanlara görə minnətdarlığımı bildirir, qədim diyarının zəngin tarixini, müasir inkişafını öz həmvətənlərim və xarici ölkələrdə yaşayan dostlarım arasında bundan sonra da təbliğ etməyi özümə mənəvi borc bilirəm.

**Arif BAYRAMOV**

## *“Yay məktəbi”*ndə növbəti mərhələyə start verildi



Gənclərin istirahətinin səmərəli təşkili məqsədilə Ağbulaq İstirahət Mərkəzində “Yay məktəbi” fəaliyyətə başlayıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunan ənənəvi “Yay məktəbi” 3 gün davam edəcək. Layihənin proqramına əsasən bu müddət ərzində təlim, konsert proqramı, müxtəlif idman oyunları, müsabiqələr, intellektual yarışlar və film nümayişi təşkil olunacaq.

Qeyd edək ki, “Yay məktəbi”nin budəfəki mərhələsində muxtar respublikada fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrinin tələbələri, həmçinin könüllü gənclər iştirak edirlər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Fövqəladə hallara hazırlıq günün tələbidir

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları tərəfindən iyul ayı ərzində muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası təmin edilmişdir.

Nazirliyin hazırlıq planına uyğun olaraq Naxçıvan Beynəlxalq Hava Limanında “Baş vermiş fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı idarəetmənin təşkili, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin nazirliyin struktur qurumları ilə qarşılıqlı fəaliyyəti” mövzusunda taktiki-xüsusi təlim keçirilmişdir. Həmçinin “Uzlaşma planı”na uyğun olaraq Əlahiddə Ümumqoşun Ordunun komissiyası tərəfindən Mülki Müdafiə Alayında kompleks yoxlama aparılmışdır.

Hesabat ayında Uzunoba çimərliyində dalğıclar tərəfindən gündəlik xidmət təşkil olunmuş, 14432 vətəndaşın təhlükəsiz istirahəti təmin edilmişdir.

Sənayedə və dağ-mədən sahələrində texniki təhlükəsizliyin təmin olunması məqsədilə dövlət reyestrində qeydiyyatdan keçmiş 12 təhlükə potensiallı baxış-yoxlama aparılmış, 19 halda texniki təhlükəsizlik qayda və normalarının pozulması aşkar edilmiş, 11 sayda texniki təhlükəsizlik qayda və normalarının pozulmaları aradan qaldırılmışdır. Həmçinin 61 texnoloji nəqliyyat vasitəsi texniki baxışdan keçirilmiş, 10 müəssisədə 312 işçinin iştirakı ilə maarifləndirmə-profilaktika işləri aparılmışdır.

Ay ərzində 14 tibb müəssisəsində radiasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə nəzarət funksiyaları həyata keçirilmiş, 6 tibb müəssisəsinə radioloji-gigiyenik pasport verilmişdir.

Mülki müdafiə işinin təşkili ilə bağlı 4 müəssisədə mülki müdafiə işinin təşkili vəziyyəti yoxlanılmış, Naxçıvan “Park AVM”-də əməli məşğələ, Ordubad və Kəngərli rayonlarının tibb müəssisələrinin rəhbərləri ilə mülki müdafiə məşğələsi, eləcə də 33 təşkilatda 968 nəfərin iştirakı ilə maarifləndirici tədbir və qrup məşğələsi keçirilmişdir.

Şərur rayonunda mövcud olan 12 ictimai yaşayış binasının zirzəmisinin saxlanma şəraiti yoxlanılmış, həmçinin Naxçıvan şəhərində 10, Şərur şəhərində 1 ictimai yaşayış binasının zirzəmisində təmir işlərinin mülki müdafiənin mühəndis-texniki tələblərinə uyğun aparılmasına nəzarət edilmişdir.

Muxtar respublikada yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə 125 obyektdə diqqətli, 169 obyektdə nəzəri, 52 obyektdə isə məqsədli yoxlama, 21 müəssisədə 1012 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilmişdir. Ay ərzində 2909 yaşayış evinə baxış keçirilmiş, yanğın cəhətdən təhlükəli olan 69 elektrik, 81 şlanqla çəkilmiş qaz xətti dəyişdirilmiş, 66 tezqatlanan tüstü borusunun istismarı dayandırılmış və 26 ot-saman tayasının yeri dəyişdirilərək təhlükəsiz yerə köçürülmüş, 6609 nəfər yanğına qarşı təlimatlandırılmış, 64 obyektlə icbari sığorta müqaviləsi bağlanmışdır.

Naxçıvan şəhərində Naxçıvan Qaz Kompressor Stansiyasına “İstismara hazırlıq aktı” verilmişdir.

Mühəndis-geoloji, beton və sement laboratoriyası tərəfindən tikinti materiallarından götürülmüş 14 sayda nümunə sınaqdan, 2 obyektin layihə sənədləri ekspertizadan keçirilmişdir.

Naxçıvan şəhərində 5 ictimai yaşayış binasında işlək vəziyyətdə olmayan tüstü bacalarının açılması istiqamətində hazırlıq işlərinin aparılması davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Məhərrəmov Fərid Bəylər oğlunun adına olan 71 BB 309 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kənd sakini Heydərov İlham Qürbət oğlunun adına verilmiş JN-546$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair” şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Məmmədov Pərviz Məmməd oğlunun adına olan 0300232202 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Şahbazlı Fərid Adil oğlunun adına olan 0200786572 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 659